BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Sosial-siyasi elmlər seriyası 2014*

# HÜQUQ

**UOT: 340.1; 321.01**

## TİBB HÜQUQ MÜNASİBƏTLƏRİNİN OBYEKTLƏRİ

**M.N.ƏLİYEV**
***Bakı Dövlət Universiteti***
***aliyev.mayis@mail.ru***

*Bu məqalədə tibb hüquq münasibətlərinin obyektləri kimi həyat və sağlamlıq məsələsi, eləcə də tibbi fəaliyyətin obyekti kimi insan orqanı və toxumaları təhlil edilmişdir. Müəllif göstərir ki, bu münasibətlərin obyekti kimi çıxış edən tibbi məlumatları özündə əks etdirən sirrin yayılmasına, həmin məlumatların mühafizəsi qaydalarının pozulmasına görə məsuliyyət müəyyən edən normalar olduqca ümumi formada ifadə olunmuş və orada hüquqi məsuliyyətin konkret olaraq hansı növündən (cinayət, mülki, inzibati və s.) söhbət getməsi öz əksini tapmamışdır. Ona görə də, təklif edilir ki, tibbi qanunvericilikdə tibbi sirri təşkil edən məlumatların mühafizəsi rejiminin pozulmasına görə hüquqi məsuliyyəti daha geniş və konkret şəkildə müəyyən edən ayrıca bir maddənin təsbit olunması məqsədəmüvafiq olardı.*

**Açar sözlər:** obyekt, hüquq münasibəti, tibb, sağlamlıq, məlumat

"Obyekt" termini ilə barəsində hüquq münasibətləri yaranan, mövcud olan və inkişaf edən, habelə subyektiv hüquqların və vəzifələrin yönəldiyi nemətlər və ya ictimai maraqlar ifadə olunur. Hüquq münasibətlərinin obyektlərinə əsasən maddi nemətlər (əşya və digər əmlak), qeyri-maddi nemətlər (insanın həyatı, sağlamlığı, şərəfi, ləyaqəti, azadlığı, toxunulmazlığı və s.), mədəni dəyərlər, əməyin nəticələri, sənədlər, hərəkətlər (işlərin görülməsi, xidmətlərin göstərilməsi və s.) aid edilir.

Tibb hüquq münasibətlərinin obyektlərini nəzərdən keçirərkən ilk növbədə onların mahiyyətini aydınlaşdırmaq lazımdır.

Məlum olduğu kimi, tibb məqsədi sağlamlığın möhkəmləndirilməsindən və qorunmasından, insan həyatının uzadılmasından, müxtəlif xəstəliklərin qarşısının alınmasından və müalicəsindən ibarət olan elmi biliklərin və təcrübi fəaliyyətin sistemidir. Bu məqsədləri reallaşdırmaq üçün tibb normal və patoloji şəraitdə insan orqanizminin quruluşunu və həyat fəaliyyəti proseslərini, insan sağlamlığına təsir göstərən təbii və sosial mühit amillərini, xəstəliklərin səbəb-

lərini, əlamətlərini, yaranması və inkişafı mexanizmini, habelə xəstəliklərin qarşısının alınması, aşkara çıxarılması və müalicəsi üçün müxtəlif fiziki, kimyəvi, texniki, bioloji faktorlardan və vasitələrdən istifadə imkanlarını öyrənir. Göründüyü kimi, tibb insan həyatının, demək olar ki, bütün tərəflərini əhatə edir. Bu isə müasir tibbi insanın fərdi həyat şəraiti, onun sağlamlığı və xəstəlikləri haqqında biliklər sisteminə çevirir. Ona görə də, insanın həyatı və sağlamlığı həm hüququn, həm də tibbin əsas mühafizə predmeti və deməli, tibb hüquq münasibətlərinin də əsas obyekti kimi çıxış edir. Əsas obyektlə insan orqan və toxumaları, habelə onun sağlamlığı barədə məlumatlar sıx surətdə bağlıdır.

Artıq qeyd edildiyi kimi, tibb hüquq münasibətlərinin obyektləri əsasən insanların həyat və sağlamlığı ilə bağlıdır. Bəs, həyat və sağlamlıq anlayışları nəyi özündə əks etdirir? Göstərmək lazımdır ki, elmi ədəbiyyatlarda “həyat” və “sağlamlıq” anlayışları birmənalı şərh olunmur. Bizim həyat haqqında biliklərimiz bir neçə hissəyə bölünür: fəlsəfi biliklər, təbii elmi biliklər və tibbi biliklər. Fəlsəfə lüğətində “həyat” anlayışı materiyanın hərəkət forması kimi göstərilir. Fəlsəfi mənada həyat fərdi bioloji orqanizmlərdə və onların məcmularında reallaşdırılır (3, 475). Ümumuyyətlə, həyat çoxaspektli olmaqla çoxlu təzahür formalarına və üsullarına malik kateqoriya kimi çıxış edir. Onu yalnız bioloji mövcudluq, fizioloji vəziyyət kimi qiymətləndirmək olmaz. İnsanın yaşamaq hüququnun hüquq baxımından tənzimi onun yalnız hüquqi deyil, həm də sosial məzmun kəsb etdiyini göstərir. Belə ki, insan həyatının keyfiyyəti, onun layiqli şəkildə təmin edilməsi məsələləri heç də az əhəmiyyət kəsb etmir. Buna görə də, insan həyatının özünü və yaşamaq hüququnu məhdud (bioloji) və geniş (onun təzahürünün bütün formaları) mənada başa düşmək olar (8, 5).

Sağlamlıq insan həyatının ən zəruri aspektlərindən birini təşkil edir. Belə ki, sağlamlıq hər bir fərdin malik olduğu ən mühüm dəyər, normal yaşayış və inkişaf zərurətidir. Z.A.Əsgərovun qeyd etdiyi kimi, hər bir fərdin yaşamasının mənası, ətraf aləmi qavraması və əmək qabiliyyəti onun sağlamlığından birbaşa asılıdır (9, 224). Q.S.Əliyev göstərir ki, sağlam olmadıqda həyatın digər nemətləri bu və ya digər dərəcədə insan üçün əhəmiyyətini itirir. Buna görə də, sağlamlığın qorunması insanın normal həyat və fəaliyyəti üçün vacib məsələdir (7, 159). İ.M.Cəfərovun fikrincə isə, sağlamlıq yalnız xəstəliklərin və fiziki qüsurların mövcudluğu ilə müəyyən edilmir. O, bütövlükdə fiziki, mənəvi və sosial rifahın durumu və göstəricisidir. Bu mənada, sağlamlığın qorunması hər kəsin fiziki və psixi sağlamlığının möhkəmləndirilməsinə, uzunmüddətli həyat fəallığının təmin edilməsinə, səhhətin pozulması ilə əlaqədar tibbi yardım göstərilməsinə yönəldilmiş siyasi, iqtisadi, hüquqi, sosial, mədəni, elmi, tibbi, sanitariya-epidemioloji tədbirlər sisteminin məcmusundan ibarətdir (6, 128).

«İqtisadi, sosial və mədəni hüquqlar haqqında» Beynəlxalq Paktın 12-ci maddəsində hər bir şəxsin fiziki və psixi sağlamlığın ən yüksək səviyyəsinə çatmaq hüququ və bu hüququn həyata keçirilməsi üçün xəstəliklərin qarşısının alınması və müalicəsi, xəstəlik hallarında hamı üçün tibbi yardımın və tibbi xidmətin təmin olunmasına şəraitin yaradılması nəzərdə tutulur. Sağlamlığın

qorunması hüququnu təsbit edən Azərbaycan Respublikası Konstitusiyasının 41-ci maddəsinə görə hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ vardır (2, 15). Beləliklə, sağlamlıq təkcə xəstəliklərin və hər hansı bir fiziki çatışmazlığın olmamasını deyil, bütövlükdə fiziki və ruhi cəhətdən tam sağlam olmaq vəziyyətini özündə əks etdirir.

Təbii elmi yanaşma həyatın struktur-funksional tərifinə üstünlük verir və burada həyat materiyanın təşkilinin müəyyən forması kimi nəzərdən keçirilir.

Tibbdə həyat konkret fərdin yaşadığı, yəni onun doğumundan ölümünə qədərki dövr kimi xarakterizə olunur. Hüquq elmində də bu yanaşma üstünlük təşkil edir. Lakin son dövrlər yeni biotibbi texnologiyaların inkişafı ilə əlaqədar olaraq "orqanizmin həyatı" və "şəxsiyyətin həyatı", "beynin ölümü", "klinik ölüm" və "bütövlükdə orqanizmin ölümü", "həyatın kəmiyyəti", "həyatın keyfiyyəti", "yaşamaq hüququ", "layiqli həyat səviyyəsi", "evtanaziya", "ölüm hüququ" və s. kimi anlayışlar geniş və fəal şəkildə araşdırılmağa və təhlil edilməyə başlamışdır. Bu məsələ ilə bağlı hüquqla yanaşı ən azı digər iki bilik sahəsinə - fəlsəfi antropologiya və tibbi-bioloji elm sahələrinə nəzər yetirmək lazımdır.

Qeyd etmək lazımdır ki, fərdin sağlamlığı ilə əhalinin (qeyri-müəyyən şəxslər dairəsinin) sağlamlığı anlayışları bir-birindən fərqlənirlər. Bütövlükdə, əhalinin sağlamlığı və insan qruplarının sağlamlığı (ictimai sağlamlıq) bir sıra göstəricilərlə müəyyən olunur:

- doğum səviyyəsi;
- ölüm səviyyəsi;
- xəstəlik səviyyəsi;
- insanların fiziki və psixi inkişaf səviyyəsi;
- orta ömür səviyyəsi və s.

İctimai sağlamlığa həmçinin bioloji, tibbi və sosial faktorlar da təsir göstərir. Əhalinin sağlamlığı xeyli dərəcədə insanların həyatının sosial şərtlərindən (əmək haqqının miqdarından, əmək şəraitindən, mənzil şəraitindən, qidalanmadan, həyat tərzindən və s.) asılıdır.

Hüquqşünaslıqda, o cümlədən mülki və cinayət prosesində daha çox fərdin sağlamlığı ilə bağlı məlumatlara istinad olunur. Əhalinin sağlamlığı ilə bağlı məlumatlardan isə nadir hallarda, məsələn, qeyri-müəyyən şəxslər dairəsinin hüquqlarının müdafiəsi haqqında iddia qaldırıldıqda istifadə olunur (4, 90).

Son illər həyatın keyfiyyəti ilə bağlı bir sıra maraqlı tədqiqat işləri yazılmışdır. V.İ.Petrov və N.N.Sedova həyat keyfiyyətinə fərdin psixosomatik vəziyyətinin onun sosial statusuna adekvatlığı kimi anlayış verirlər (5, 41). Bu anlayışda şəxsiyyətin üç struktur səviyyəsinin – bioloji, psixi və sosial səviyyələrinin hər biri nəzərə alınmışdır.

Həyat keyfiyyəti sağlamlıqla sıx surətdə bağlı olduğundan fərdin fiziki, psixi, sosial rifahının təmin olunma səviyyəsi sağlamlığın göstəriciləri kimi çıxış edə bilər. "Həyat fəaliyyəti" anlayışından istifadə olunmaqla həmçinin sağlamlığa vurulmuş zərərin qiymətləndirilməsi prosedurası obyektivləşdirilə bilər. Bu baxımdan istənilən tibbi müdaxilənin başlıca və son məqsədi həyat

fəaliyyətinin yaxşılaşdırılmasından ibarətdir. Həmin məqsəd qarşılıqlı əlaqədə olan bir sıra vəzifələrin (orqanın funksiyasının bərpası, ağrının aradan qaldırılması və s.) həlli yolu ilə həyata keçirilir. Bəzi hallarda həyat keyfiyyəti əhəmiyyətli dərəcədə pozulur və onu bərpa etmək mümkün olmur. Lakin tibbi müdaxilə həyat keyfiyyətinin azalması prosesini dayandıra və ya ləngidə bilər ki, həmin halda bu onun məqsədini təşkil edir.

Daha mürəkkəb problemlər insanın klonlaşdırılması zamanı yarana bilər. Məsələn, atalığın, analığın, əmlak hüquqlarının müəyyən edilməsi və s.

Hüquqi tənzimetmədə tibbi məlumatlar da obyekt kimi çıxış edir. Tibbi məlumatlar bir qayda olaraq tibbi sənədlərdə öz əksini tapır. Tibbi məlumatlardan hüquqi proseduralar çərçivəsində müalicə və digər məqsədlərlə həkim, tibb bacısı, səlahiyyətli şəxslər və digər müvafiq subyektlər istifadə edə, həmçinin həmin məlumatlar arxivləşdirilə bilər. Azərbaycan dilinin izahlı lüğətində "məlumat" sözü bir şey haqqında bilmək, izahat, iş, hadisə və s. haqqında arayış vermək, xəbər vermək kimi izah olunur (1, 250).

Tibbi məlumatlar şəxsi məlumatlarla sıx surətdə əlaqədardır. Şəxsi məlumatlar hər hansı fərdlə bağlı olub onun şəxsiyyətini müəyyən etməyə imkan verir. Tibbi məlumatlar dedikdə əsasən aşağıdakılar başa düşülür:

- fiziki şəxsin fiziki və psixi sağlamlığı haqqında məlumatlar;
- xəstəliyin olub-olmaması haqqında məlumatlar;
- xəstəliyin yaranma səbəbləri;
- müalicə metodları (üsulları);
- xəstəliyin diaqnozu;
- orqanizmin həyat fəaliyyətinin fərdi xüsusiyyətləri ilə bağlı məlumatlar.

Tibbi məlumatlar müxtəlif mənbələrdən – xəstənin özünün, onun yaxınlarının, müalicə həkiminin ifadələrindən, xəstəlik tarixçəsindən və s.-dən əldə oluna bilər.

Tibbi məlumatların bilavasitə mənimsənilməsi və qiymətləndirilməsi bir sıra səbəblərə görə çətinləşir. Belə ki, insaanın sağlamlıq vəziyyəti, onun xəstəliyinin olub-olmaması barədə məlumatlar çox vaxt dolayı yolla əldə edilir. Həmin məlumatlar tibbi sənədlərdə toplanır.

Pasiyentlərin maraqlarının və tibbi xarakterli məlumatların qorunması məqsədilə tibbi sirr institutundan istifadə olunur.

Təəssüflər olsun ki, tibbi məlumatları özündə əks etdirən sirrin yayılmasına, həmin məlumatların mühafizəsi qaydalarının pozulmasına görə məsuliyyət müəyyən edən normalar (məsələn, "Əhalinin sağlamlığının qorunması haqqında" qanunun 53 maddəsi) olduqca ümumi formada ifadə olunmuş və orada hüquqi məsuliyyətin konkret olaraq hansı növündən (cinayət, mülki, inzibati və s.) söhbət getməsi öz əksini tapmamışdır. Ona görə də, tibbi qanunvericilikdə tibbi sirri təşkil edən məlumatların mühafizəsi rejiminin pozulmasına görə hüquqi məsuliyyəti daha geniş və konkret şəkildə müəyyən edən ayrıca bir maddənin təsbit olunması məqsədəmüvafiq olardı.

**ӘDӘBİYYAT**

1. Azərbaycan dilinin izahlı lüğəti. Bakı: Çıraq, 1999, 1054 s.
2. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Hüquq ədəbiyyatı, 2012, 64 s.
3. Fəlsəfə ensiklopedik lüğəti. Bakı: «Azərbaycan Ensiklopediyası" NPB, 1997, 518 s.
4. Осокина Г.Л. Иск (теория и практика). М.: Норма, 2000, 212 с.
5. Петров В.И., Седова Н.Н. Проблема качества жизни в биоэтике. Волгоград, 2001, 280 с.
6. Cəfərov İ.M. Azərbaycan Respublikası Konstitusiyasının şərhi. Bakı: Hüquq ədəbiyyatı, 2010, 488 c.
7. Əliyev Q.S. Azərbaycan Qanunvericiliyi insan hüquqları haqqında. Bakı, 2000, 197 c.
8. Əliyev M.N. İnsanın yaşamaq hüququ və onun sosial müdafiə sahəsində təminatları. Bakı: Təknur, 2009, 210 s.
9. Əsgərov Z.A. Konstitusiya hüququ: Dərs vəsaiti. Bakı: BDU, 2011, 632 s.

## ОБЪЕКТЫ МЕДИЦИНСКИХ ПРАВООТНОШЕНИЙ

**М.Н.АЛИЕВ**

**РЕЗЮМЕ**

В данной статье исследуются такие вопросы как объекты правоотношений жизни и здоровья, а также органы и семя человека как объект деятельности медицины. Автор показывает, что распространение тайны медицинских сведений, выступающих как объект данных правоотношений, нормы, устанавливающие ответственность за нарушение правил охраны данных сведений выражены достаточно в общей форме и нашли свое отражение высказывание о конкретных видах юридической ответственности (уголовной, гражданской, административной и т.д.). И поэтому предлагается, что было бы целесообразным утвердить отдельную норму, в более распространенном и конкретном виде, определяющую юридическую ответственность за нарушение режима охраны сведений.

**Ключевые слова**: объект, правоотношение, медицина, здоровье, информация

## OBJECTS OF LEGAL MEDICAL RELATİONS

**M.N.ALIYEV**

**SUMMARY**

This paper explores such issues as the objects of legal relations of life and health, as well as the organs and the family of a man as objects of medicine. The author shows that the distribution of the secrets of medical information, acting as the objects of the data of legal relations, and the norms, establishing liability for violation of the rules of this information are expressed in fairly general terms and are reflected on the statement of specific types of legal liability (criminal, civil, administrative, etc.). Therefore, it is recommended to adopt a separate rule, in a more widespread and definite form that would appropriate legal responsibility for the violation of the protection of information.

**Key words**: object, legal relations, medicine, health, information